بسم الله الرحمن الرحیم

www.ketab.ir

**1644 Imam Khomeini Specialized University**

عنوان قراردادی: شیعه: مذاکرات و مکاتبات پرفسور هانری کربن با علامه سید محمدحسین طباطبایی. ترکی
عنوان و نام پدیدآور: Müzakirələr Əllamə Məhəmməd Huseyn Təbatabai ilə professor Henri Korbinin müzakirəsi[Book]/ [Seyyid Mohamad Huseyn Tabatabai [correct] [compiled by Seyyid Hadi Khosrowshahi ].; translated by Naği Ağayev.
مشخصات نشر: Qum: Al-mustafa International Translation and Publication Center, 2019= 1398.
مرجع تولید: پژوهشگاه بین‌المللی المصطفی ﷺ
مشخصات ظاهری: ۳۱۲ ص.؛ ۱۴/۵×۲۱/۵ س‌م.
شابک: ۹۷۸-۶۰۰-۴۲۹-۶۹۲-۲
وضعیت فهرست نویسی: فیپا
یادداشت: ترکی آذربایجانی.
موضوع: طباطبائی، سیدمحمدحسین، ۱۲۸۱ - ۱۳۶۰.
موضوع: Tabatabai, Sayyed Muhammad Husayn
موضوع: کربن، هانری، ۱۹۰۳ - ۱۹۷۸م؛ Corbin, Henry
موضوع: شیعه -- دفاعیه‌ها؛ Shi'ah -- Apologetic works
موضوع: شیعه -- ردیه‌ها؛ Shi'ah -- Controversial literature
موضوع: شیعه -- عقاید؛ Shia'h -- Doctrines
شناسه افزوده: خسروشاهی، سیدهادی، ۱۳۱۷ - ، گردآورنده
شناسه افزوده: Khosrowshahi, Seyyid Hadi
شناسه افزوده: آقایف، نقی، ۱۹۷۳ - م.، مترجم
شناسه افزوده: Agayev, Naqi
رده بندی کنگره: BP۲۱۲/۵/ط۲ش۹۰۴۵ ۱۳۹۸
رده بندی دیویی: ۲۹۷/۴۱۷
شماره کتابشناسی ملی: ۵۸۷۲۰۰۳

**BP1197**

**Al-Mustafa International Publication and Translation Center Translation Center**

**Müzakirələr Əllamə Məhəmməd Hüseyn Təbatəbai ilə professor Henri Korbinin müzakirəsi**
**Toplayan və yazan:** Seyyid Hadi Xosrovşahi
**Tərcümə edən:** Naği Ağayev
**Year of publication:** 1441AH/ 1398 Sh/ 2019
**Publisher:** Al-Mustafa International Translation and Publication Center
**Printing:** Narenjestan, Tehran
**Print-run:** 500
**ISBN:** 978-600-429-692-2

**شیعه (مجموعه مذاکرات با پروفسور هانری کربن) اثر علامه طباطبایی**
**تدوین و گردآوری:** سیدهادی خسروشاهی **مترجم:** نقی آقایف
**چاپ اول:** ۱۳۹۸ش / ۱۴۴۱ق / ۲۰۱۹م
● **چاپ:** نارنجستان ● **قیمت:** ۴۷۰۰۰۰ ریال ● **شمارگان:** ۵۰۰

● **مدیر انتشارات:** مصطفی نوبخت
● **مدیر تولید:** جعفر قاسمی ابهری
● **ناظر فنی:** علی عبادی فرد
● **ناظر گرافیک:** مسعود مهدوی
● **ناظر چاپ:** نعمت‌الله یزدانی
● **صفحه‌آرایی:** سیدمحمدرضا جعفری

➤Alley No. 18, Muallim Gharbi Street (Hujjatiyeh), Qom, Iran
Tel: +98 25 378 36 134 Tel-Fax: +98 25-37839305-9 (Ext 105)
➤ Boulevard Muhammad Ameen, Y-track Salariyah, Qom, Iran
Tel: +98 25-32133106

pub_almustafa http://buy-pub.miu.ac.ir miup@pub.miu.ac.ir

www.ketab.ir

# Müzakirələr

## Əllamə Məhəmməd Hüseyn Təbatəbai ilə professor Henri Korbinin müzakirəsi

**Seyyid Hadi Xosrovşahi**

Tərcümə edən:

**Nağı Ağayev**

www.ketab.ir

**Al-Mustafa International Translation and Publication Center**

## Publisher,s Forword

To begin and execute a research is like walking in the path of development and evolvement. When the seeds of the "questions" are planted, in the soil of the mind of the researcher, this phase initiates, and its end is culminated when the result and the outcome of knowledge and wisdom is gained.

Evidently, this end is a new chapter in itself, for growth, and announces beforehand this good news to humans. For the result of all those mental efforts will not only bring the blooming and flowering of talent and all kinds of Blessings to humans, but it also makes the mind of the researcher to ponder and shape new, more questions.

This will produce a great collection of growing plants and flowers for the seeking mind... Those "questions" are in fact, the seeds, which according to the necessities of Time and the strength of the researchers will grow and bloom by themselves. They will make Culture and Civilization to move forward.

In like manner, the increasing rate of transferring oneself from one place to another place and the decrease of the distances will make those seeds travel miles and miles, to faraway places, in order to install them inside the curious mind of other seekers. This will bring an amazing diversity and a novelty for another civilization...

It is true then, that the presence of knowledge and a good, capable management will help this project to develop itself and one has to admit indeed, that it has always played an important role...

Al-Mustafa International Publication and Translation Center, because of its global mission, and its special position among the Religious Schools and the colorful human diversity that it has developed inside itself, sees it as a moral duty to procure all the appropriate conditions for any research works, and takes its role in this matter, most seriously. To procure all kinds of necessary grounds, with an excellent management of all the existing possibilities and talents, and to care and protect all its researchers in religious fields; these are the most crucial responsibilities of the Department of Research in this International center.

We highly hope that by being attentive to all these autonomous scientific movements, and by fortifying all the existing motives, we shall be able to witness the blooming of the Religious Culture in every part of this wide world!

**Al-Mustafa International**
**Publication and Translation Center**

www.ketab.ir

# Mündəricat


**Ön söz** ........ 11

**Giriş** ........ 13

**1. Şiə məktəbi** ........ 19
- Şiəlik necə vücuda gəldi? ........ 19
- Müxalif qüvvələrin şiənin yaranması haqqında nəzərləri ........ 20
- Şiənin həqiqətinin tanınması və şiə məzhəbi ........ 21
- Şiənin qarşılaşdığı çətinliklər ........ 22
- İslam hökuməti və vilayətin süqut etməsi ........ 24
- Şiənin bu işdə müvəffəqiyyəti ........ 28
- Əhli-beytin öz məqamından aşağı endirilməsi ........ 30
- Şiənin elmi metodu ........ 38
- Şiənin hədis haqda nəzəri ........ 40
- Elmin inkişafında şiənin müvəffəqiyyəti ........ 44
- Şiələrin elmi nəzəriyyələr haqda ixtilafı ........ 48
- Son söz ........ 49
- Doktor Korbinin sualları ........ 50
- Suallara cavab ........ 53

**2. Şiə imamlarının bəyanı və fəlsəfi fikirlər** ........ 77
- YEKUN BƏHSLƏR ........ 77
- Fəlsəfi bəhslərlə tanışlıq ........ 77
- Allahı tanımaq ........ 80
- Şiə rəhbərlərinin bəyanlarında fəlsəfi təfəkkür ........ 83
- Keçən hədislər haqda geniş izah ........ 111
  - 1) Allah-təalanın vücudu və Onun mütləqliyi ........ 112
  - 2) Allahın birliyi və onun mənası ........ 114
  - 3) Allahın sifətləri və Onun zat ilə eyniyyəti məsələsi ........ 115
  - 4) Allah-təalanın öz zatına və hər şeyə elmi ........ 115
  - 5) Bütün məxluq üçün haqqın məlum olması ........ 116


www.ketab.ir

6) Allahın qüdrət və həyatı....... 117
7) Allahın cəlal sifətləri....... 117
8) Allahın feliyyət sifətləri. ....... 118
9) Varlıq aləminin vücudunun mövqeyi və onun əvvəli və sonu.119
10) Qəza və qədər məsələsi ....... 120
Vilayət məsələsi Vilayət ilə nübüvvətin əlaqəsi....... 121
Vilayətin sübutu ....... 125
**Tabeçilik və kəsb yolu ilə vilayət....... 126**

**3. Əli Əhmədi Miyanəci və Seyid Hadi Xosrovşahın izahları ....... 135**
1) Bu ayənin sübutuna əsasən: ....... 135
2) Bu ayə dəlalət edir ki, ....... 136
3) Əbdullah ibn Səba....... 136
Abdullah ibn Səba kimdir?....... 137
İbn Səba və onun əqidəsi haqda dastanlar ....... 138
İbn Səba nə üçün islam gətirdi!? ....... 140
Başqa mənbələr ....... 143
Abdullah ibn Səba xəyali bir şəxsdir?....... 144
Taha Hüseyn nə deyir?....... 144
Doktor Əli Əliverdinin əqidəsi....... 149
Görəsən, Əmmar Yasir, İbn Sovdadır!? ....... 152
Şiə alimlərinin tədqiqi, Mürtəza Əsgəri ....... 156
Seyf kimdir? ....... 157
Kaşiful-Ğitanın nəzəri ....... 158
Ustad Abdullah Səbitinin tədqiqi ....... 158
Şiə və Qulat....... 161
4) İranlılar şiəni intiqam almaq üçün yaratdılar ....... 163
5) Şiəlik, qohumluq əlaqəsi səbəbindən vücuda gəldi! ....... 166
6) Şiəliyi Ali Buyə (Buveyvilər) vücuda gətirdi! ....... 167
Ali Buyənin tarixi....... 167
7) Şiəni Səfəviyyənin siyasəti vücuda gətirdi. ....... 169
Səfəviyyə:....... 169
Amma Səfəviyyə sultanlarının özü haqda:....... 170
Töhmətlərə aid bəhslərin sonu ....... 171
Kəsrəvi, şiənin məxsus düşməni ....... 171
8) Səqifə hadisəsindən sonra şiənin yaranması ....... 172
9) Əli (ə) xilafətdən necə məhrum oldu ....... 174
10) Səqifə hadisəsinə Əli (ə) və səhabələrinin etirazı ....... 180
Əlinin (ə) kəlamı: ....... 180
Həzrət Zəhranın etirazı....... 181
Hüseyn ibn Əlinin kəlamı ....... 182
Salmanın etirazı....... 183
Əbuzərin çıxışı ....... 183

www.ketab.ir

11) Rəsulullahın səhabəsinin etirazı .......... 184
Əhli-beyt vilayəti haqda mütəvatir rəvayətlər .......... 185
A).Bəni-Haşimin dəvəti .......... 185
B).Qədir hədisi. .......... 186
C ). Səqələyn hədisi .......... 187
D).On iki xəlifə haqda hədisi. .......... 187
Digər rəvayətlər və onların mənbələri .......... 188
13) İlahi hökmlərdə dəxalət .......... 189
14) Əbu Süfyanın məsləhəti .......... 190
15) Münafiqlər .......... 190
16) Maneəçilər .......... 191
17) Münafiqlərin sükutu .......... 191
18) Əbu Bəkrin xütbəsi .......... 192
19) Həzrət Zəhra (s) və Əlinin (ə) məscidə getməsi; Fədəkin zorla qəsb edilməsi. .......... 192
20) Xalid ibn Vəlidin cinayəti .......... 193
21) Ömərin xilafətə seçilməsi .......... 194
22) Hökmlərin dəyişməsi .......... 194
23) Beytul-malın bölünməsi .......... 196
24) Müaviyənin firavan yaşayışı .......... 197
25) Səhabələr müctəhiddir və etdikləri səhvlərində üzrlüdür .......... 198
26) Səhabə və hakimiyyət .......... 199
27) Bol qənimət .......... 199
Müsəlmanların iqtisadi vəziyyətinə bir baxış .......... 200
28) Hakimiyyətə kimlər gəldi? .......... 201
29) Mənbələr .......... 202
30) Cəməl, Siffeyn və Nəhrəvan müharibəsi .......... 202
31) Əlinin (ə) şəhadəti .......... 203
32) Müaviyənin hakimiyyətə çatmaq planları .......... 203
33) Zus-Sudeyyə! Əmr ibn As və Bəsr ibn Ərtah .......... 205
34) Yəzid üçün beyət alınması .......... 206
35) Ziyad, İbn Ziyad və Həccac .......... 207
36) Həccac ibn Yusif .......... 207
37) Bəni-Abbas hakimiyyətinin başlanması .......... 208
38) Bəni-Abbasın cinayətləri .......... 208
39) Hansı hadisəni islamın öhdəsində qoymaq olar? .......... 209
40) Əksəriyyətin cinayətlərindən bir hissə .......... 209
41) Əhli-beyti lənətləyib, söymək .......... 210
42) Şiənin qanını hədər bildilər! .......... 211
43) Zındıqlar .......... 212
44) Təqiyyə .......... 212
45) Şiə təbliğatı və şiə qiyamı .......... 213
46) Bəni-Üməyyə ailəsi .......... 218


www.ketab.ir

Bəni-Haşim və Bəni-Üməyyənin öz əcdadından (paklıq və napaklığı) irs aparması ....... 218
Əbu Süfyan ....... 219
Osman İbn Əfvan ....... 221
Peyğəmbərin səhabəsi Əbuzər nə üçün sürgün edildi!? ....... 225
Əbuzər nə deyirdi? ....... 225
Müaviyə ibn Əbu Süfyan ....... 229
Böyük yazıçıların bir neçəsinin nəzəri ....... 230
Müaviyənin söhbətləri və əməlləri haqda qısa məlumat ....... 233
Müaviyə kafirlərə maliyat verirdi ....... 236
Müaviyə həqiqi mənada "Makyavelçidir" ....... 237
Makyavelin əqidəsi ....... 237
Müaviyənin İmam Həsən ilə davranışı ....... 238
İmam Həsənin (ə) sülhü ....... 238
İamam Həsənin Şəhadəti ....... 239
Yəzid Müaviyənin canişini olur? ....... 239
Yəzidin işlərindən kiçik bir hissə ....... 240
47) İslamın ictimai nizamı ....... 242
48) İctimai üslublar ....... 244
49 və 50) Hədisin sənədi ....... 246
51) Camaat və Əhli-beytin elminin mənbəsi ....... 246
52) Əhli-beyt (ə) öz hüququndan məhrum oldu ....... 250
53) Əhli-beytdən üstünlüyün alınması ....... 252
54) Əli və Əli övladını tanımadılar ....... 254
55) Peyğəmbərin vəfatından sonra elmi Tədqiqat ....... 255
56) Hədis yazmağın qadağan olması ....... 257
57) Əl-qədir ....... 258
58) İslamda dinsizlik ....... 258
59) İslamda fəlsəfə tarixi ....... 258
60) Hədis elminin əhəmiyyəti ....... 259
61) Hədis saxtalanması ....... 259
62) Hədisin quranla uyğunlaşması ....... 261
63) Nə üçün hədis yazılmadı? ....... 262
64) Qoca cəmiyyət ....... 263
65) Şer necə yayıldı ....... 264
66) Elm və fənnin islam şəraitində tapılması ....... 264
67) Şiənin elmi üslubu ....... 266
İmamların isməti ....... 266
Hədis nəqlinin şərtləri ....... 274
Hədisin ixtilafı ....... 278
Şiənin fiqhi üslubu ....... 278
Şiənin təfsir üsulu ....... 281
Amma şiənin metodu: ....... 282

www.ketab.ir

Elmin ixtisaslı fənnləri və şiələr ... 285
68) Ruhların yaranması ... 286
69) Vəsailuş-şiə ... 287
70) Öncə deyildiyi kimi ... 287
Mənbələr ... 287
71) Bihar ... 287
72) Bu kitabın 61və 62-ci nömrəsinə müraciət olsun ... 288
73) Tovhid Səduq ... 288
74) Tovhid Səduq, ... 288
75) Bu kitabın 67№ müraciət olsun ... 288
76) Farabi - ikinci müəllim ... 288
77) Əbu Əli Sina - Şeyxul rəis ... 288
78) Şəhabəddin Sührəvərdi - Şeyx işraq ... 289
79) Xaci Nəsiruddin Məhəmməd Tusi ... 289
80) Şəmsəddin Məhəmməd Türkə ... 290
81) Seyyid Məhəmməd Baqir Əstərabadi - Mirdamad ... 290
82) Sədrəddin Şirazi - Sədrul Mütəəllihin ... 290
83) Məhəmməd Səid Qumi - Qazi Səid ... 291
84) Molla Əli Nuri ... 291
85) Ağa Əli Zənuzi - Müdərris ... 292
86) Ağa Məhəmməd Bid Abadi ... 292
87) Ağa Məhəmməd Rza Qumşeyi ... 292
88) Məhəmməd Feyz Kaşani ... 292
89) Molla Hadi - Hacı Səbzivari ... 293
90) Vəhdət; Allaha, Rəsulullaha və ulul əmrə müraciət etmək; şura . 293
Mənbələr: ... 294
91) Bu mətləb haqda vilayət mövzusuna müraciət olunsun. ... 294
92) Ayə dəlaləti əsasında ... 294
93) Əbuzər rəvayət edir ... 294
94-95) Yaranışın başlanması və zərr aləmi ... 295
96) Hədisi qudsi ... 295
97) İslam mədəniyyətinə aid kitablara müraciət olunsun. ... 295
98) Məhdi dünyanı qeybdən islah edəcək ... 295
İmam Zaman haqda mütəvatir rəvayətlər ... 296
İmamların sayı və Məhdinin adının bəyan edilməsi ... 296
Məhdi, İmam Həsən Əsgərinin (ə) övladıdır ... 297
Bəhslərin mənbəsi ... 297
99) Quranda bu mətləb müxtəlif bəyanlarla sabit olubdur ... 297
100) Qurani-kərimdə bu həqiqət hidayət sözü ilə bəyan olubdur 298
101) Fitrət ... 298
102) Əbədi din ... 298
103) Həzrət Adəmin dastanı ... 299
104) Allaha dəvət ... 300

www.ketab.ir

105) Bu ayə ........................................................................ 300
106) Dünya insan üçün yaranıbdır ............................................... 301
107) İnsan yarandığı quruluş əsasında hərəkət etməlidir ............. 301
108) Mənəvi həyat ................................................................... 302
109) Çünki qəflət və xəta ......................................................... 302
110) Bu ayənin sübutu əsasında ................................................ 302
111) Ayə dələlət edir ............................................................... 303
112) Fitri ixtilaf və peyğəmbərlərin dəvəti ................................ 303
113) Ayənin dəlaləti ................................................................. 304
114) Ayə dələlət edir ................................................................ 304
115) İmamların xüsusiyyəti ....................................................... 304
116) Şəhadət ........................................................................... 304
117) Təfsir Burhanda və Nurus-səqəleyn təfsirində ...................... 305
118) Nurus-səqələyn və Burhan təfsirində ................................... 305
119) Bəsairu dərəcat kitabında çoxlu rəvayət nəql olubdur ........... 305
120) Vilayət movzusunun nəticəsi. ............................................ 305

**Mənbələr ........................................................................ 307**

www.ketab.ir

## Ön söz

İslam peyğəmbərinin vəfatından sonra bir dəstə səhabə, əksər müsəlmanların Quran və peyğəmbər sünnəsinin bəzi göstərişlərilə müxalifətçilik etdiyini görüb, onlara öz etirazlarını bildirərək, Quran və sünnə ilə həmrah olmağa çağırdılar. Bu müxalifətçilik vilayət və islam hakimiyyətinin aradan getməsinə səbəb olurdu. İslam peyğəmbəri, cəmiyyəti ilahi vəhy əsasında idarə edirdi. Amma peyğəmbərin vəfatından sonra o həzrətin vəsiyyətindən boyun qaçırıb vilayəti qəbul etməyənlər, təbii olaraq ilahi rabitədən əlləri kəsildiyi üçün, müsəlmanlara aid işlərin idarəçiliyində öz şəxsi ictihadlarına üz tutdular. Bu metod isə səhv və xətadan sığortalanmamışdı. Eləcə də Quran və mütəvatir hədislər (səqəleyn və səfinə hədisləri kimi) Hz.Rəsulullahın (s) əhli-beytinin elmi dərəcəyə sahib olmasını bəyan etsə də, bəzi müsəlmanlar dildə deməsələr də öz əməlləri ilə cəmiyyət arasında əhli beytin elmi məqamını gözdən salmağa çalışırdılar. Belə ki elmi sahələrdə digərlərini irəli çəkib, əhli beyti isə uzaqlaşdırırdılar. Yalnız əhli beyt məktəbinə bağlı olan şəxslər öz elmi metodlarında, islam maarifinin öyrənilməsində əhli beytə istinad edirdilər.

İmamiyyə məktəbinin elmi üslubu;

Qurana və doğruluğu təsdiqlənmiş hədislərə əsasən islam maarifində, etimad olunan üç etibarlı dəlil mövcuddur.

www.ketab.ir

Onlar Quran, sünnə və əqldir. Həqiqətdə bunların hamısının etibarı Quranın dəlil olmasına qayıdır.

İmamiyyə məktəbi müxtəlif elmi sahələrdə əhli beytin təliminə əsaslanaraq fiqh, təfsir, tarix, kəlam və hədis elmində nailiyyətlər əldə etmişlər. Amma əfsuslar olsun ki, imamiyyə məktəbi tarix boyu müxtəlif təzyiq və işgəncələrə məruz qalaraq, o nurani maarifi digər insanlara çatdıra bilməyiblər. Qərb dünyasının islam dini haqqında elmi məlumatları, yalnız əhli-sünnət mənbələrindən olduğu üçün, islam maarifini lazımınca əldə edə bilməyiblər. Lakin əhli-beytin elmindən xəbərdar olsaydılar, bu ilahi maarifi tam surətdə əldə edərdilər. Quran və əhli beytin parlaq və hidayətedici kəlamının bütün insanların qulaqlarına çatıb, qəlblərinin Allaha doğru dönməsi ümidi ilə...

Əlinizdə tutub, oxuduğunuz bu dəyərli kitabın işıq üzü görməsində əziyyət çəkən "Beynəlxalq əl-Mustafa Universiteti"nin təhqiqat bölməsinə və kitabı redaktə edən Seyyid Hüseyn Fərhadova dərin minnətdarlığımı bildirirəm.

www.ketab.ir

## Giriş

Əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbai deyir:

Mən, 1958-ci ildə öz şəxsi işlərimlə əlaqədar Tehrana gedərkən, həmin şəhərdə bəzi şəxsiyyətlər ilə görüşdüm. Bu görüşdə yaranan fürsətdən istifadə edərək keçmiş mədəniyyət naziri və universitet müəllimi cənab doktor Cəzairi dedi ki, Fransız şərqşünası, Tehran və Fransanın Sorbon universitetinin fəlsəfə müəllimi cənab professor Henri Korbin sizinlə görüşmək istəyir.

Mən özüm də, onda olan yüksək əxlaqa və elm aləminə verdiyi böyük töhfələrə görə belə bir görüşə maraqlı idim. Buna görə də iki-üç gündən sonra cənab doktor Cəzairinin evində böyük səmimiyyət və mehribanlıqla görüş təşkil olundu. Doktor Korbin Fransaya getməyə hazırlaşdığından, görüşün qısa müddətdə, əlüstü olmasına baxmayaraq, yenə də dostluq və tanışlıq üçün öz elmi və əməli zəhmətlərindən, yorulmaz səy və fəaliyyətinin nəticəsindən qısa məlumat verdi.

Cənab doktor Korbin, indiyə kimi şərqşünasların İslamdan əldə etdikləri məlumatların, kitab və digər sahələrdə görülən elmi fəaliyyətlərin, dini şəxsiyyətlərlə görüşlərin hamısı əhli-sünnət aləmində olaraq, sünni alimlərinin yazdığı kitab və əsərlərdən kənara çıxmadığını və hətta başqa İslam məzhəblərini araşdırmaq üçün belə sünni kitablarına müraciət olunduğunu qeyd etdi.

www.ketab.ir

İrana gələn şərqşünaslar isə özlərindən əvvəlkilərin məlumatlarına əsaslanaraq, şiə məzhəbinin həqiqətinə etina etmirlər. Sadəcə elmi və məzhəbi fəaliyyəti ictimai formaya salmaq üçün adi camaatda görünən məlumatlarla kifayətlənir və ixtisas sahibi olmayanlardan məlumat alırlar. Nəticədə isə şiə məzhəbinin həqiqəti qərb dünyasında tanınmır. Əgər müəyyən qədər tanınıbsa, bu da qərb şərqşünaslarının vasitəsilə olub.

Əgər elmi yığıncaqlarda uğurlar ələ gəlirsə, bu, sünni alimlərinin göstərdiyi səy və zəhmətləri olduğundan, sözsüz ki, avropalı alimlər arasındakı islam da sünni məzhəbinə əsaslanacaq. İslam fəlsəfəsi isə sanki İbn Rüşd Əndəlusi ilə sonlanıb.

Amma keçmiş şərqşünasların qərb aləminə tanıtdırdıqlarının əksinə olaraq, mənim fikrim budur ki, şiəlik, kökü möhkəm olan bir məzhəbdir və ondan başqa olan məzhəblərin heç birinin əsası yoxdur.

Mən bir protestant xristian alimi kimi uzun müddət tədqiqatdan sonra başa düşdüm ki, İslam mənəviyyatına və varlığına şiə nəzərindən baxmaq lazımdır. Ona görə ki, o, doğru yol göstərir.

İnsan mənəviyyatında olan çətinliyin həll olması və ona düzgün yol göstərmək müqəddəs və pak olan dinin öhdəsindədir ki, bu da şiə təfəkkürü və üsulu ilə həll olunur.

Bu səbəblərə görə mən bütün gücümü buna sərf etmişəm ki, şiə məzhəbini lazımı qədər və öz şərəfinə uyğun şəkildə qərb aləminə çatdırım. Həmçinin bundan sonra da bu məzhəbin tanınması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Mən, şiə məzhəbinin alimləri ilə yaxından əlaqə saxlayıb, onların təfəkkürləri ilə tanış olmağı və məzhəbin əsaslarını araşdırmaqda, habelə mənəviyyat əldə etməkdə bu alimlərin fikrindən kömək alıb, öz hədəfimə doğru daha aydın şəkildə hərəkət etməyimi çox istərdim.

Cənab doktor Korbin sonra müxtəsər şəkildə Şeyx

www.ketab.ir

Sührəvərdinin kitablarının, "Sührəvərdi İslam fəlsəfəsində İşraq məktəbinin banisi" adı ilə çap olmasından və universitetlərdə Mirdamadın fəlsəfə məktəbi haqqında təşkil etdiyi konfransları bəyan edib, bunlardan əlavə Sədrul-Mütəəllihin Şirazinin fəlsəfə məktəbi barədə çıxış edərək, o böyük filosofun məktəbinə öz təşəkkürünü bildirdi.

Yuxarıdakı bəhslər birinci görüşün xülasəsi idi və burada sona çatır.

Əllamə Təbatəbai qeyd edir: Bu il (1958) Dəmavənd dağının ətrafında yay tətilini sona çatdırıb Qum şəhərinə qayıdanda bir neçə gün Tehranda qalmalı oldum. İkinci görüş Mehr ayının on altısı (oktyabrın 9-u) axşam, qabaqcadan təşkil olunmuş dəvət əsasında, eləcə də çox mehriban və səmimiliklə keçirildi. Bu iclasda cənab doktor Korbin öz çıxışında bildirdi ki, bu il Avropada olduğum zaman Cenevrə şəhərində təşkil olunan iclasda "İmam Müntəzər" mövzusunda şiə əqidəsi əsasında çıxış etdim. Mənim çıxışım iclasda iştirak edən avropalı alimlər üçün təzə mövzu idi.

Cənab Korbin daha sonra qeyd etdi ki, mənim fikrimcə, şiəlik yeganə məzhəbdir ki, Allah ilə bəndələr arasında olan hidayət əlaqəsini həmişə qoruyub saxlayır, habelə İmamət və vilayəti bir-biri ilə əlaqədə və canlı olaraq bilir.

Yəhudi dini qeyd olunan bu əlaqəni həzrəti Musadan sonra sona çatdırdı və ondan sonrakı peyğəmbərlərə - həzrəti İsa Məsih və həzrət Məhəmmədə (səlləllahu əleyhi və alihi və səlləm) iman gətirmədiklərindən, nəticədə bu əlaqə kəsildi. Xristianlar həzrəti İsada durdular. Müsəlmanlar arasında isə sünnilər həzrəti Məhəmmədin (səlləllahu əleyhi və alihi və səlləm) ilahi xəbərləri sona çatdıqdan sonra artıq Allah ilə bəndələr arasında olan hidayət əlaqəsini kəsməli oldular. Təkcə şiə məzhəbi nübuvvət məqamının həzrəti Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm) ilə sona çatmasına baxmayaraq, bu hidayət əlaqəsini İmamət və vilayət məqamı vasitəsilə həmişəlik qoruyub hifz edir.

www.ketab.ir

Bu, insanı İlahi aləm ilə birləşdirən bir əlaqədir. Bu əlaqə həzrəti Musadan (ə) əvvəl və sonrakı dinlərin dəvəti ilə yaranaraq, həzrəti Məhəmməddən (səlləllahu əleyhi və alihi və səlləm) sonra onun vəsisinin vasitəsi ilə qorunur. Vəsilərin vasitəsi ilə yaranan əlaqə şiə əqidəsinin əsası, canı və həqiqətidir. Elmi nəzəriyyələr onu heç vaxt xurafat sayaraq, həqiqət səhifəsindən poza bilməz.

Mənim fikrimcə, bütün dinlər haqq olaraq, canlı bir həqiqətin davamçısı, habelə bu canlı həqiqətin əslinin isbat olunmasında şərikdirlər.

Amma düşünürəm ki, yalnız şiə məzhəbi bu həqiqəti yaşadır. Çünki insan ilə İlahi aləmin arasında olan əlaqəyə məhz onların etiqadları var. Bu əlaqə həmişə qorunub, hifz olunacaq.

**Sizin də fikriniz budur?!**

Əllamə Təbatəbai qeyd edir: İslam baxımından Yaradanı isbat etmək nəzəriyyəsi həqiqi və düzgün bir nəzəriyyədir. Keçmiş dinlərin hamısı bu barədə eyni fikirdədirlər. Amma həqiqi dinin varlığını təcəssüm etdirən və "səmavi din" adını daşıyan din, yalnız Allaha pərəstiş edən, nübüvvət əlaqəsini isbat edən və məada əqidəsi olandır.

"Üç əsl (prinsip): tövhid, nübüvvət, məad" əqidəsi dörd dinə - yəhudi, xristian, məcusi və İslama aiddir.

İslam dini, həqiqi dinə (özünə) göstərilən ehtiram və əzəməti, yəhudilərin və xristianların inancından da əsirgəməyib. Bu din, Musa və İsa həzrətlərinin məqamını müqəddəs bilərək, onların dinini, kitabını və şəriətini təsdiq edib.

Habelə bu din, məcusilərin dininə ehtiramla yanaşıb, onların hamısının Allah yolunda haqq olduğunu bildirərək, bəşər övladının kamala çatması üçün Allah-təala tərəfindən bu dinlərin insanlara lazım olduğu müxtəlif zamanlarda göndərildiyini bəyan edir. Amma İslam dini, başqa dinlərin, Allahın isbatı haqqında, həmçinin bəzi əxlaq məsələləri və mənəviyyatı təsdiq edən nəzərləri olmasına baxmayaraq, bu

www.ketab.ir

dinləri, dinin həqiqi varlığını daşıyan, insanların səadətini nəzərə alan, bəşəriyyətin dünya və axirət mənafeyini təmin edən bir din kimi tanımır.

İslam nəzərində, zahiri mənsubiyyətə deyil, doğru etiqada və gözəl əmələ dəyər verilərək, etibar olunur [1]. Elə buna görə də, İslam dini, islamın əsasları onlar üçün bəyan olunmayan, yaxud islamın əsasları haqqında düşünməyən insanlara, tamamilə güzəştə gedir və onları müstəzəf (zəif olunmuş) sayır [2]. Lakin İslam, Allahın varlığını aydın şəkildə bilərək, dini maarif onlara bəyan olduqdan sonra haqqı qəbul etməkdən boyun qaçıran insanlarla tam ciddiyyətlə, tələbkarlıqla rəftar edir.

Bu söhbətlə ikinci iclas sona çatdı və sonrakı görüşlər yazılı surətdə müzakirə olundu.

www.ketab.ir